# İNSAN HÜQUQLARI

## ICESCO HƏRBİ KONFLİKTLƏR DÖVRÜNDƏ MƏDƏNİ İRSİN MÜHAFİZƏSİNDƏ ƏSAS BEYNƏLXALQ TƏŞKİLATLARDAN BİRİ KİMİ

LEYLA HƏŞİMOVA*

**Annotasiya**

*Məqalədə ICESCO-nun hərbi konfliktlər dövründə mədəni irsin mühafizəsində əsas beynəlxalq təşkilatlardan biri kimi mühüm fəaliyyət istiqamətləri təhlil edilir. Qeyd edilir ki, ICESCO mədəni irsin qorunmasında, xüsusilə hərbi münaqişələr zamanı mühüm beynəlxalq təşkilatlardan biri kimi tanınır. ICESCO üzv dövlətlərin mədəni, elmi və təhsil sahələrində əməkdaşlığını təşviq etmək məqsədilə yaradılmışdır. Təşkilat islam dünyasının mədəni irsini qorumağı öz prioritetlərindən biri kimi müəyyən edib və münaqişələr zamanı bu irsin məhv edilməsinin qarşısını almağa xüsusi diqqət ayırır. Təşkilatın mandatı hərbi konfliktlərdə xüsusilə tarixi və mədəni obyektlərin qorunması, müharibə nəticəsində zərər görmüş irsin bərpası, mədəni obyektlərə qarşı vandalizm və qəsdən məhv etmənin qarşısının alınması təşkil edir. Beləliklə, ICESCO mədəni irsin mühafizəsi üzrə qlobal səylərdə fəal iştirak edir və hərbi münaqişələrdə bu irsin qorunmasını prioritet məsələlərdən biri hesab edir. Təşkilatın bu sahədəki fəaliyyəti həm üzv dövlətlərə zəruri hüquqi və texniki dəstək, həm də beynəlxalq ictimaiyyətin diqqətini mədəni irsin mühafizəsinə yönəltmək baxımından olduqca əhəmiyyətlidir.*

**Açar sözlər:** *islam dünyası, mədəni irs, hərbi münaqişələr, beynəlxalq hüquq, üzv dövlətlər, beynəlxalq ictimaiyyət, qlobal səylər, beynəlxalq təşkilatlar.*

### *I. Tədqiqatın aktuallığı*

İslam dini mədəniyyətin inkişafına təsir göstərməklə əsrlər boyu həm memarlıq, həm də təhsil və elm baxımından, o cümlədən xalqların öz gündəlik yaşayış tərzini dəyişdirə bilmişdir. İslam memarlığı və ya islam dininin geniş yayılmasından sonra şərqdə ərəb dilindən geniş istifadə tarixi faktlar olmaqla bu gün mədəni irs nümunələrində əhəmiyyətli dərəcədə öz yerini göstərir.

Ədəbiyyatda qeyd olunur ki, islam ölkələrində baş verən hərbi konfliktlər mədəni irsin oğurlanması, dağıdılması və ona zərər vurulmasına səbəb olmuşdur. Belə faktlar 2014-cü ildən etibarən İraqda və Suriyada geniş, Liviyada isə az həcmdə müşahidə olunur. 2014-2015-ci illəri əhatə edən 6 ay ərzində 28-dən çox mədəni irs obyektinə zərər vurulmuş və onlardan bəziləri tamamilə məhv edilmişdir. Habelə bu ölkələrdə olan çox qiymətli daşınar mədəni irs obyektləri cinayətkar məqsədlə xarici ölkələrdə satılmaq üçün qaçaqmalçılıq yolu ilə ölkədən çıxarılmışdır [6]. Bu fakta əsasən onu da qeyd etməyi zəruri hesab edirik ki, bu ölkələrdə mədəni irs obyektlərinə zərər vurulması və ya məhv edilməsi milli səviyyədə yaratdığı təhlükələrlə yanaşı, qlobal səviyyəli əhəmiyyətli mədəni irs obyektlərinə zərər vurulması ilə nəticələnir. Bu isə ictimai təhlükəlilik səviyyəsini beynəlxalq səviyyəyə qaldırır. Ona görə də, xüsusilə İslam

* H.ü.f.d. / Bakı Dövlət Universiteti / email: hashimova_leyla@yahoo.com

dünyasında mədəni irsin qorunması üçün spesifik tədbirlərin görülməsi əhəmiyyətli, müzakirə edilən mövzulardan birinə çevrilmişdir.

## *II. ICESCO fəaliyyətinin mühüm istiqamətləri və mədəni irsin qorunması problemi*

İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı (ICESCO) mədəni irsin qorunmasında, xüsusilə hərbi münaqişələr zamanı mühüm beynəlxalq təşkilatlardan biri kimi tanınır. ICESCO, üzv dövlətlərin mədəni, elmi və təhsil sahələrində əməkdaşlığını təşviq etmək məqsədilə yaradılmışdır. Təşkilat İslam dünyasının mədəni irsini qorumağı öz prioritetlərindən biri kimi müəyyən edib və münaqişələr zamanı bu irsin məhv edilməsinin qarşısını almağa xüsusi diqqət ayırır.

Ədəbiyyatda qeyd olunur ki, 1982-ci ildə əsası qoyulmuş, 53 üzv dövləti özündə birləşdirən ICESCO islam düynasının mədəni irsinin qorunması üzrə əsas fəaliyyəti həyata keçirir, 240-a yaxın islam dünyası irs kompleksini öz mandatı altına ala bilmişdir [4]. Bu olduqca geniş ərazini və qlobal səviyyədə öz əhəmiyyəti ilə seçilən mədəni irs nümunələrini əhatə etdiyini deməyə imkan verir. Təşkilatın spesifik xüsusiyyət əsasında dövlətləri öz ətrafında birləşdirməsi onun fəaliyyətinin daha güclü əsaslarla qurulmasına imkan verir. Belə ki, Təşkilat ortaq dəyərləri olan dövlətləri əməkdaşlığa cəlb etdiyindən dini faktor baxımından meydana çıxan oxşarlıqlar və ortaq cəhətlər hüquqi mexanizmlərin formalaşdırılması zamanı tərəflərin qarşılıqlı anlaşması prosesini asanlaşdırır.

ICESCO Nizamnaməsi bu təşkilatın əsas məqsəd və funksiyalarından biri qismində maddi və qeyri-maddi irsin hüquqi mühafizəsi və qorunub saxlanılması vasitəsi olaraq mədəniyyət sahəsində inkişafı dəstəkləmək və təşviq etmək göstərilmişdir [1]. ICESCO-nun əsas missiyalarından biri İslam dünyasının mədəni və tarixi irsinin qorunmasıdır. Təşkilat mədəni irsin münaqişələr zamanı dağıdılmasının qarşısını almaq və onun bərpasını təmin etmək üçün strategiyalar hazırlayır. Bu kontekstdə İSESCO, xüsusən də tarixi abidələr və dini obyektlər kimi mədəni irs nümunələrinin qorunmasına diqqət yetirir. Bu onun təsis sənədi olan Nizamnaməsi ilə qarşısına qoyulmuş əsas missiyasının tərkib hissəsi kimi qəbul edilməlidir. Bir sözlə ICESCO, islam dünyasının mədəni irsini qorumaq, təşviq etmək və bərpa etmək məqsədilə yaradılmış beynəlxalq təşkilatdır.

Qeyd edilməlidir ki, məhz UNESCO kimi ICESCO səviyyəsində qəbul edilmiş bir çox sənədlərdə mədəni irsin hüquqi mühafizəsi təşkilatın əsas qarşısında duran məsələ kimi müəyyən edilir. İSESCO-nun 2022-2025-ci illər üzrə qəbul edilmiş strateji xəritəsi adlı sənəddə də bu cür yanaşmaya rast gəlmək mümkündür. Belə ki, ICESCO-nun 2022-2025-ci illər üzrə strategiya xəritəsinə əsasən, islam dünyasında icmaların spesifik onlara xas yerli xüsusiyyətlərə və islami kimliklərinə hörmət etməklə mədəni müxtəlifliyi, sivilizasiyalararası dialoqu və irsin qorunmasını təşviq etmək strateji məqsədlər kimi təsbit edilmişdir. ICESCO-nun strateji məqsədlərinin əsasları 4 əsas qrupda cəmləşdirilmişdir, 4-cü mədəniyyət qrupunun altqruplarından biri kimi məhz

maddi, qeyri-maddi mədəni irsin qorunması və mühafizəsi üzrə fəaliyyət müəyyən edilmişdir [5]. Məhz təşkilatın fəaliyyətində əsas istiqamətləri təsbit edən sənəddə göstərilən məzmunda müddəaların yer alması ICESCO-nun hərbi konfliktlər dövründə mədəni irsin qorunması barədə fəaliyyətinin əsaslarını müəyyən edir. Bu təşkilati olaraq fəaliyyətin həyata keçirilməsi və planlaşdırılması üçün xüsusi əhəmiyyət kəsb edən məsələdir. Əslində qeyd olunan əsas dolayısı ilə müxtəlif şəraitlərdə, xüsusilə hərbi münaqişələr zamanı mədəni irsin qorunmasını da təşkilatın fəaliyyət prioritetlərindən biri kimi qəbul etməyə imkan verir.

ICESCO tərəfindən 2000-ci ildə keçirilmiş 9-ci İslam Konfransında qəbul edilmiş İslam Dünyasından kənarda İslam Mədəniyyəti Fəaliyyəti Strategiyasının məzmununa nəzər salsaq, ICESCO-nun mədəni irsin qorunmasındakı rolunu daha geniş müəyyən etmək olar. Əvvəla, Strategiyada qeyd olunur ki, həmin sənədin şamil olunduğu və əhatə etdiyi sferalar arasında mədəni irs və mədəniyyət də yer alır. Strategiyanın məqsədləri arasında mədəni irsin qorunmasının təmin edilməsi əsas məqsəd kimi göstərilir. Eləcə də, mədəni irsin qorunması və ötürülməsi üçün xüsusi hissədə müvafiq fəaliyyət planı və məqsədləri müəyyən olunmuşdur [9]. Qeyd etməyi zəruri hesab edirik ki, Dünya İrs Siyahısında təsbit edilmiş mədəni irs obyektlərinin kifayət qədəri islam ölkələrinin payına düşür. Odur ki, islam ölkələrindəki mədəni irsin mühafizəsi üzrə beynəlxalq əməkdaşlıq platformasının təşkili xüsusi əhəmiyyətlidir. Nəzərə alınsa ki, islam ölkələrinin bəzilərində qaynar nöqtələrinin olması danılmaz faktdır. Belə ki, heç də səbəbsiz yerə İraq və Suriyada mədəni irsi obyektlərinin dağıdılması ilə əlaqədar fəaliyyətlər BMT Təhlükəsizlik Şurası və UNESCO tərəfindən pislənilməmişdir. Bu səbəbdən qlobal xarakterli əməkdaşlıqdansa, islam ölkələrinin sahib olduqları mədəni irsin mühafizəsi üzrə bir araya gəlməsi daha effektiv nəticələr əldə etməyə imkan verir. Bunun əsas səbəbi ortaq din faktoru olmaqla yanaşı, mədəni inkişafda meydana çıxan oxşarlıqlardır. Ona görə də ICESCO mədəni irsin qorunması üzrə beynəlxalq hüquqi mexanizmi kimi xüsusi əhəmiyyətə malik təşkilatdır.

ICESCO-nun mədəni irsin qorunmasında həyata keçirdiyi fəaliyyətlərdən biri də irsin qorunub və mühafizə edilməsi ilə məşğul olan xüsusi mərkəzin yaradılmasıdır. ICESCO tərəfindən yaradılmış və onun strukturunda yer alan İslam Dünyası üçün Mədəni İrs Mərkəzi regional və beynəlxalq səviyyəli fəaliyyətə sahib olmaqla, irsin qorunması və irsdən istifadənin qaydalarının, onun idarə edilməsini müəyyən edərək iştirakçı dövlətlərə bu istiqamətdə öz dəstəyini göstərir. Mərkəzin funskiyaları arasında ICESCO-nu mədəni irsin mühafizəsi və ya idarə edilməsi üzrə fəaliyyətə malik olan regional və beynəlxalq platformalarda iştirakını təmin etmək də yer almışdır. O da qeyd edilməlidir ki, təşkilatın həyata keçirdiyi proqramlarda mədəni irs üçün təhdid hesab olunan şəraitlər və hallarda onun qorunması, zərər vurulmuş mədəni irs obyektlərinin bərpa edilməsi barədə fəaliyyət də yer alır. Qeyd edilir ki, münaqişə və post-münaqişə dövründə mədəni irsin qorunması və onunla bağlı tədbirlərin həyata keçirilməsi Mərkəzin əsas fəaliyyət istiqamətlərindənm biridir

[2]. Əvvəla, bu islam dünyasında mədəni irsin qorunması və bunun təşviq edilməsi ilə əlaqədar ICESCO tərəfindən atılmış mühüm addımlardan biridir. Bu məqsəd və funksiyalara sahib təsisatın yaradılması islam dünyasında sırf mədəni irsin qorunması üzrə fəaliyyəti həyata keçirən, xüsusi tədbirlər görən mexanizmin formalaşdırılması mədəni irsin qorunmasına öz pozitiv təsirini göstərir. Burada diqqət çəkən məqam ICESCO-nun fəaliyyətinin hərbi konfliktlər dövründə, həm də hərbi konfliktlərdən sonrakı dövrdə mədəni irs obyektləri ilə bağlı tətbiq etdiyi fəaliyyətin mexanizminin formalaşdırılmasıdır. Belə ki, ICESCO tərəfindən yaradılmış mərkəzin əsas fəaliyyət istiqamətləri müəyyən edilərkən xüsusi olaraq hərbi konfliktlər dövründə mədəni irsin qorunmasının təşkil edilməsi, post-konflikt dövründə zərər görmüş mədəni irs obyektlərinin bərpası istiqamətində işlərin yer alması ICESCO-nun bu istiqamətdə rolunu göstərən əsas faktor kimi qiymətləndirilməlidir. Bu Mərkəzin fəaliyyətinin təmin edilməsi islam dünyası üçün hərbi konfliktlərdə mədəni irsin qorunması sahəsində beynəlxalq təşkilati mexanizmin formalaşmasına səbəb olur.

Yuxarıda qeyd edilənlərdən əlavə ICESCO bir çox beynəlxalq hüquqi əhəmiyyətli işlər görərək effektiv beynəlxalq mexanizmlərin formalaşdırılmasına cəhd göstərmişdir. Ədəbiyyatda qeyd olunur ki, 2007-ci ildə Mədəniyyət Nazirlərinin 5-ci İslam Konfransında ICESCO-nun hökümətlərarası ixtisaslaşmış İslam İrsi Komitəsinin yaradılması haqqında qərar qəbul edilmişdir. 2019-cu ildə bu təşkilatın adı dəyişdirilərək İslam Dünyası İrs Komitəsi adlandırılmışdır, bu hadisə eyni zamanda İslam Dünyası İrs Siyahısının tərtib edilməsi istiqamətində də işlərin görülməsinə başlanğıc kimi qəbul edilir [8]. Qeyd olunan Komitənin yaradılması bir çox istiqamətdən mədəni irsin qorunmasına öz töhfəsini verir. Belə ki, bu Komitə hökumətlərarası ixtisaslaşmış təsisat olmaqla daha çevik icra mexanizmləri yarada və tədbirləri həyata keçirə bilər. Komitənin operativ və çevikliyi UNESCO modelində olduğu kimi ICESCO çərçivəsində də uğurlu praktikanın tətbiqi UNESCO-nun universal səviyyədə Dünya İrs Komitəsinin əldə etdiyi uğurlarını ICESCO çərçivəsində islam dünyasında da əldə etmək mümkündür.

İslam dünyası İrs Komitəsinin fəaliyyətini tənzimləyən İslam Dünyası İrs Komitəsinin Qayda və Prosedurları adlı sənəd də mədəni irsin qorunmasına müsbət təsir göstərəcək bir sıra mühüm məsələlərə toxunulmuşdur. Əvvəlcə, bu sənəd mədəni irsə anlayış verilməsini təmin edir. Mədəni irsin mühafizəsi üzrə Komitənin geniş həcmli funksiyaları da bu sənədlə müəyyən edilmişdir. Belə ki, Komitə üzv dövlətlərin mədəni irs obyektlərini qorumaq, mədəni irs obyektlərinin qorunmasının təmin edilməsi üçün mexanizmlər formalaşdırmaq və ehtiyacı olan dövlətlərə təqdim etmək, mədəni irs obyektlərinin talan edilməsi və qanunsuz dövriyyəsi ilə mübarizə aparmaq, mədəni irs obyektlərinin ekspertizasını aparmaq, İrs Layihələrinə Dəstək Fondu ilə əlaqədar daxil olmuş müraciətləri araşdırmaq və bu barədə qərarlar qəbul etmək, beynəlxalq səviyyədə keçirilən tədbirlərdə üzv dövlətlərin mövqelərinin koodinasiyasını təmin edən mexanizmlərin formalaşdırılmasını təmin etmək

kimi funksiyalara sahibdir [7]. Göründüyü kimi qeyd olunan beynəlxalq normativ sənəd ICESCO-nun ixtisaslaşmış qurumunun beynəlxalq səviyyədə mədəni irsin qorunması üzrə bir çox fəaliyyətinin hüquqi əsasını təşkil edir. Fundamental baza sənəd olmaqla qurumun əsas funskiyaları arasında geniş şəkildə mədəni irsin qorunmasına dair mexanizmlərin formalaşdırılması üzrə fəaliyyətin hüquqi əsaslarının təsbiti ICESCO-nun mədəni irsin qorunması üzrə fəaliyyətini şərtləndirir və bu fəaliyyətin effektivliyini artırır. Komitə geniş spektrli fəaliyyətə malik olmaqla mədəni irsin qorunmasına beynəlxalq səviyyədə öz töhfəsini verir. İslam Dünyası İrs Komitəsi ICESCO çərçivəsində mədəni irsin bütün şəraitlərdə, xüsusilə hərbi konfliktlərdə mühafizəsi üçün daha effektiv mexanizm kimi özünü biruzə verir. Qeyd edilməlidir ki, qəbul edilmiş sənəddən də göründüyü kimi, bu Komitə İslam Dünyasındakı mədəni irsin qorunması üzrə effektiv mexanizmlərin formalaşdırılmasına əsas məsul qurum kimi çıxış edir. Bu olduqca vacibdir. Struktural olaraq Komitənin çevik, operativ işləmə sisteminə sahib olması mədəni irsə dair təhdidlərə dair effektiv mexanizmlərin formalaşdırılması və üzv dövlətlər tərəfindən təmin edilməsi üçün əvəzsiz rola malik platforma kimi çıxış etməsinə səbəb olur. Həmçinin İslam Dünyası İrs Siyahısının tərtib edilməsi, mədəni irs nümunələrinə dair ekspertizanın aparılması kimi funksiyalara sahib bir Komitənin mövcudluğu hərbi konfliktlərdə mədəni irs nümunələrinə ziyan vurulması, onların məhv edilməsi, talan edilməsi və ya qanunsuz dövriyyəyə çıxarılması ilə mübarizəsində səmərəli və uğurlu nəticələr əldə etməyə imkan verir.

Təhlillərdə qeyd olunur ki, ICESCO daimi olaraq üzv dövlətlərin mədəni irsin qorunması üzrə fəaliyyətlərini işləyir və bu istiqamətdə aktivliyini genişləndirir. Bunun bir sıra faktorları mövcuddur. Onun əsasında isə Ümumdünya İrs Siyahısında yer alan obyektlərin 18 faizi islam ölkələrinin ərazisində yerləşir. Təhülkə altında olan Ümumdünya İrs Siyahısında yer alan obyektlərin isə 63 faizi ICESCO-nun əhatə etdiyi ərazilərdə yerləşir. Bu məqsədlə ICESCO-nun fəaliyyətinin əhatə etdiyi əsas istiqamətlərdən biri təhlükə altında olan mədəni irs obyektlərinin sayının azalmasına nail olmaqdır. ICESCO tərəfindən mədəni irs üzrə fəaliyyətlərin effektivliyini artırmaq üçün maliyyə vəsaitlərinin cəb edilməsi zərurəti nəzərə alınaraq ICESCO-nun büdcəsi və üzv dövlətlər, təşkilatlar və bu kimi digər ianə, subsidiyalar əsasında maliyyə vəsaiti formalaşdırılan xüsusi fond yaradılmışdır. Mədəni irs obyektlərinin konfliktlərdə zərər görməsi, məhv edilməsi və qanunsuz dövriyyəsinin qarşısının alınması kimi məqsədlərə nail olmaq üçün tədbirlər görmək təşkilatın əsas funskiyalarından biri kimi təsbit olunmuşdur [3]. Qeyd edilməlidir ki, mədəni irsin istər sülh, istərsə də hərbi konfliktlər dövründə mühafizəsinin təmin edilməsi üçün maliyyə resurslarının mövcudluğu olduqca vacibdir. Maliyyə proqramlarının olmadığı layihələr çox zaman uğurlu nəticələrin əldə olunmasının qarşısını alır. Odur ki, ICESCO-nun təşəbbüsü ilə islam dünyasında yerləşən maddi və qeyri-maddi mədəni irs nümunələrinin qorunması üçün tədbirlərin həyata keçirilməsi, üzv dövlətlərə maliyyə yardımı göstərmək

funskiyası daşıyan bir maliyyə fondunun yaradılması ICESCO-nun hərbi konfliktlər dövründə mədəni irsin qorunması üzrə fəaliyyətinə öz müsbət təsirini göstərir.

Qeyd etməyi zəruri hesab edirik ki, mədəni irsin mühafizəsində belə bir addımın atılaraq xüsusi maliyyə fondunun formalaşdırılması beynəlxalq təşkilatın mədəni irsin qorunmasında fəaliyyətini səmərəliləşdirir, daha müsbət nəticələr əldə etməyə imkan verir. Burada diqqət yetirilməli məqam fondun maliyyə dəstəklərinin düzgün şəkildə ayrılmasıdır. ICESCO çərçivəsində qəbul edilmiş beynəlxalq prosedural normativ sənəddən göründüyü kimi, ümumilikdə üzv dövlətlərə Fond tərəfindən maliyyə yardımın ayrılması ilə bağlı müraciətlər İslam Dünyası İrs Komitəsi tərəfindən qiymətləndirilir [7]. Fondun fəaliyyətinə İslam Dünyası İrs Komitəsi tərəfindən nəzarət aparılması və bu fəaliyyətə Komitə tərəfindən dəstək göstərilməsi belə fəaliyyətin səmərəlilik göstəricilərini yüksəldir.

*III. ICESCO və beynəlxalq təşkilatlar arasında əməkdaşlıq münasibətləri*

ICESCO münaqişə zonalarında mədəni irsin məqsədli şəkildə dağıdılmasının qarşısını almaq üçün maarifləndirmə kampaniyaları və mədəni diplomatiya təşəbbüsləri həyata keçirir. Təşkilat bu yolla yerli və beynəlxalq səviyyədə əməkdaşlıq üçün imkan yaratmağa çalışır. Münaqişə bölgələrində dağıntıya məruz qalan tarixi və mədəni obyektlərin qorunması üçün təşkilat bir sıra mühüm tədbirlər həyata keçirir. Öz ixtisaslaşmış qurumlarının da fəaliyyəti ilə münaqişə zonalarına beynəlxalq ekspert qrupları göndərərək mədəni irs obyektlərinin dəyərləndirilməsi və qorunması üzrə hesabatlar hazırlayır, dağıdılmış məscidlərin, muzeylərin, kitabxanaların və digər mədəni irs obyektlərinin bərpası üçün maliyyə dəstəyi təmin edir. ICESCO münaqişədən zərər çəkmiş abidələrin və mədəni obyektlərin bərpası ilə bağlı layihələr həyata keçirir ki, buna da misal olaraq Yaxın Şərqdə, xüsusilə də Suriya və İraqdakı tarixi abidələrin bərpasının təşkilatın diqqət mərkəzində olması göstərilə bilər. ICESCO habelə mədəni irsin qorunması üçün üzv dövlətlərə hüquqi çərçivələrin hazırlanmasında yardım edir və beynəlxalq konvensiyaların ratifikasiyasını təşviq edir. Burada xüsusilə UNESCO ilə əməkdaşlıq özünü daha çox biruzə verir. ICESCO UNESCO çərçivəsində mədəni irs ilə əlaqədar qəbul edilmiş beynəlxalq müavilələrin implementasiyası və tətbiqi ilə əlaqədar xüsusi işlər görür. Təşkilat üzv ölkələrin mədəni irsin qorunması ilə bağlı beynəlxalq müqavilələrə qoşulmasını təşviq edir. Buraya 1954-cü il Haaqa Konvensiyası və onun Protokolları, həmçinin 2003-cü il Qoşulmama Hərəkatının mədəni irsin mühafizəsi prinsipləri daxildir.

ICESCO-nun mədəni irsin qorunması ilə əlaqədar qurduğu beynəlxalq əməkdaşlıq əlaqələri UNESCO ilə məhdudlaşmır. Eyni zamanda bir sıra digər əlaqəli təşkilatlarla da sıx əlaqələrə girərək səmərəli fəaliyyətlər həyata keçirir. Bir sözlə ICESCO UNESCO, İCOMOS (International Council on Monuments and Sites) və digər beynəlxalq təşkilatlarla əməkdaşlıq edərək hərbi münaqişələr zamanı mədəni irsin qorunmasını gücləndirir. Habelə Təşkilat regional

səviyyədə mədəni irsin qorunması üzrə strategiyalar hazırlamaq və bu sahədə koordinasiya yaratmaq üçün digər təşkilatlarla da tərəfdaşlıq edir. İSESCO hərbi münaqişələr zamanı mədəni irsin mühafizəsi ilə bağlı əsas beynəlxalq aktor kimi həm hüquqi, həm də texniki sahədə böyük töhfələr verir. Bu fəaliyyətlər üzv ölkələrdə mədəni irsin qorunmasını gücləndirərək mədəni müxtəlifliyin davamlılığını təmin edir. Bununla yanaşı, təşkilat mədəniyyətin münaqişələrin həlli və davamlı sülhün qurulmasında mühüm rolunu vurğulayır.

Mədəni irsin hüquqi mühafizəsinin təmin edilməsi ICESCO-nun üzv dövlətlərinin zəngin tarixi və mədəni irsinin mühafizəsini təmin etmək üçün beynəlxalq səviyyədə göstərdiyi səylər çərçivəsində həyata keçirilir. ICESCO hərbi konfliktlər zamanı mədəni irsin qorunması, bərpası və sənədləşdirilməsi ilə bağlı fəaliyyətlər həyata keçirir. Bu missiya İslam dünyasının zəngin tarixi və mədəni irsinin məhv edilməsinin qarşısını almaq məqsədini güdür.

### *IV. Əldə edilən mühüm nəticələr*

Ümumilikdə təşkilatın fəaliyyətini və qəbul etdiyi sənədləri təhlil edərək belə nəticəyə gəlmək olar ki, ICESCO-nun əsas məqsədi üzv dövlətlərdə mədəni irsi qorumaq və bu sahədə beynəlxalq hüquq və normativ çərçivələri inkişaf etdirməkdir. Təşkilatın mandatı hərbi konfliktlərdə xüsusilə tarixi və mədəni obyektlərin qorunması, müharibə nəticəsində zərər görmüş irsin bərpası, mədəni obyektlərə qarşı vandalizm və qəsdən məhv etmənin qarşısının alınması üzrə fəaliyyətləri göstərir. ICESCO, 1954-cü il Haaqa Konvensiyasına və UNESCO-nun Dünya İrs Konvensiyasına uyğun olaraq üzv dövlətləri mədəni irsin qorunmasına dair öhdəliklərini yerinə yetirməyə təşviq edir. Təşkilat münaqişələrdə mədəni irsin məhv edilməsini beynəlxalq hüququn pozulması kimi tanıyır və bu istiqamətdə sanksiyaların tətbiqini dəstəkləyir. ICESCO-nun mədəni irsin qorunması üzrə fəaliyyətləri arasında xüsusi vurğulanmalı olan məsələlərdən biri də İslam Dünyası Mədəni İrs Siyahısının tərtib edilməsi ilə bağlı fəaliyyətidir. Belə ki, ICESCO üzv dövlətlərdəki mədəni irs nümunələrini müəyyənləşdirmək və onları xüsusi siyahıya daxil etmək üçün proqramlar hazırlayır. Bu siyahıya tarixi abidələr, arxeoloji qalıqlar, ənənəvi sənətlər və folklor daxil edilir.

ICESCO-nun mədəni irsin qorunmasında uğurlu fəaliyyəti və rolu olsa da, digər təşkilatlar kimi qarşılaşdığı bir sıra çətinliklər də mövcuddur. Odur ki, ICESCO-nun mədəni irsin mühafizəsi üzrə fəaliyyəti tam effektiv hesab oluna bilməz. Bunu belə izah edə bilərik ki, ICESCO-nun fəaliyyəti üzv ölkələrdə siyasi vəziyyətdən və beynəlxalq münasibətlərdən asılıdır. Bu beynəlxalq təşklilat kimi onun məhdud səlahiyyətləri, habelə onun səlahiyyətlərinin dövlət suverenliyi ilə məhdudlaşması ilə əlaqədardır. Münaqişələrdə tərəflərin beynəlxalq hüquqa əməl etməməsi təşkilatın səmərəliliyini azaldan faktor kimi çıxış edir. Bundan əlavə olaraq maliyyə və texniki resursların məhdudluğu münaqişə zonalarında mədəni irsin effektiv

qorunmasına mane olur. Terror qrupları və ya qeyri-dövlət aktorlarının mədəni obyektlərə hücumları ilə mübarizə etmək beynəlxalq hüquqi çərçivədə mürəkkəb problem olaraq qalır. Maliyyə və texniki resursların məhdudluğu ICESCO-nun fəaliyyətini məhdudlaşdırır. Bu səbəbdən üzv dövlətlər və beynəlxalq tərəfdaşlar daha çox dəstək təmin etməlidir. Terror qruplarının mədəni obyektlərə hücumları beynəlxalq hüquq çərçivəsində böyük bir problem olaraq qalır. Bəzi hallarda üzv dövlətlərdəki daxili siyasi vəziyyət ICESCO-nun fəaliyyətini çətinləşdirir. Buna görə də qeyd olunan problemlərin həlli istiqamətində dövlətlərin beynəlxalq əməkdaşlığı ICESCO-nun fəaliyyətinin inkişaf etdirilməsi ilə mədəni irsin qorunmasında olan rolunu daha da gücləndirə bilər.

Yekun olaraq qeyd etməyi zəruri hesab edirik ki, ICESCO mədəni irsin mühafizəsi üzrə qlobal səylərdə fəal iştirak edir və hərbi münaqişələrdə bu irsin qorunmasını prioritet məsələlərdən biri hesab edir. Təşkilatın bu sahədəki fəaliyyəti həm üzv dövlətlərə hüquqi və texniki dəstək, həm də beynəlxalq ictimaiyyətin diqqətini mədəni irsin mühafizəsinə yönəltmək baxımından olduqca əhəmiyyətlidir.

## ƏDƏBİYYAT (REFERENCES):

1. Charter of the Islamic World Educational, Scientific and Cultural Organization adopted by the Founding Conference (Fez, 1402H/1982).
2. Cultural Heritage Centre for the Islamic World ICESCO, ICESCO publishing, 8 p., p. 3-5.
3. Fun for Heritage assets in the Islamic World. URL: https://iwh.ICESCO.org/wp-content/uploads/2024/11/Fund-for-Heritage-assets-in-the-Islamic-World.pdf ( last access 01.06.24).
4. ICESCO in brief. URL: https://ICESCO.org/en/who-we-are/about/in-brief/ (last access 15.06.24).
5. ICESCO’S Strategic Map 2022-2025. URL: https://ICESCO.org/wp-content/uploads/2024/05/ICESCO-Strategic-Map-2022-2025.pdf (last accessed 10.06.2024).
6. Khalid al-Taie (13 February 2015). “Iraq churches, mosques under ISIS attack”. mawtani.alshorfa. com. Archived from the original on 19 February 2015. URL: https://web.archive.org/web/20150219092526/http://mawtani.alshorfa.com/en_GB/articles/iii/features/2015/02/13/feature-01 (last access: 15.06.24).
7. Rules of Procedure of the Islamic World Heritage Committee.
8. The 11th Session of the Islamic World Heritage Committee, ICESCO Publishing, 2023, 11 p., p.4.

9. The Strategy for Islamic Cultural Action outside the Islamic World Adopted by the 9th Islamic Summit Conference Doha - State of Qatar, November 2000, Publications of the Islamic Educational, Scientific and Cultural Organization -ISESCO. Rabat - Morocco - 1430H/2009 A.D, 107 p., p. 26, 39, 41-42.

## ICESCO AS ONE OF THE MAİN İNTERNATİONAL ORGANİZATİONS İN THE PROTECTİON OF CULTURAL HERİTAGE DURİNG MİLİTARY CONFLİCTS

LEYLA HASHIMOVA*

**Abstract**

*The article analyzes the important directions of ICESCO's activity as one of the main international organizations in the protection of cultural heritage during military conflicts. It is noted that ICESCO is recognized as one of the important international organizations in the protection of cultural heritage, especially during military conflicts. ICESCO was established to promote cooperation between member states in the cultural, scientific and educational fields. The organization has identified the protection of the cultural heritage of the islamic world as one of its priorities and pays special attention to preventing the destruction of this heritage during conflicts. The organization's mandate is to protect, in particular, historical and cultural objects in military conflicts, restore heritage damaged as a result of war, and prevent vandalism and deliberate destruction of cultural objects. Thus, ICESCO actively participates in global efforts to protect cultural heritage and considers the protection of this heritage in military conflicts to be one of the priority issues. The organization's activity in this area is extremely important both in terms of providing the necessary legal and technical support to member states and drawing the attention of the international community to the protection of cultural heritage.*

**Keywords:** *islamic world, cultural heritage, military conflicts, international law, member states, international community, global efforts, international organizations.*

## ICESCO КАК ОДНА ИЗ ОСНОВНЫХ МЕЖДУНАРОДНЫХ ОРГАНИЗАЦИЙ ПО ЗАЩИТЕ КУЛЬТУРНОГО НАСЛЕДИЯ ВО ВРЕМЯ ВОЕННЫХ КОНФЛИКТОВ

ЛЕЙЛА ХАШИМОВА*

**Аннотация**

*В статье анализируется важная деятельность ICESCO как одной из основных международных организаций по защите культурного наследия во время военных конфликтов. Отмечается, что ICESCO признана одной из важных международных организаций по защите культурного наследия, особенно во время военных конфликтов. ICESCO была создана для содействия сотрудничеству государств-членов в культурной, научной и образовательной сферах. Организация определила сохранение культурного наследия исламского мира одним из своих приоритетов и уделяет особое внимание предотвращению уничтожения этого наследия во время конфликтов. Мандатом*

* PhD in Law / Baku State University / email: hashimova_leyla@yahoo.com
* Д.ф.п.п. / Бакинский государственный университет / email: hashimova_leyla@yahoo.com

*организации является защита исторических и культурных объектов в военных конфликтах, восстановление поврежденного войной наследия, а также предотвращение вандализма и преднамеренного разрушения культурных объектов. Таким образом, ICESCO активно участвует в глобальных усилиях по защите культурного наследия и считает защиту этого наследия в военных конфликтах одним из приоритетных вопросов. Деятельность организации в этой сфере очень важна как с точки зрения оказания необходимой юридической и технической поддержки государствам-членам, так и направления внимания международного сообщества на защиту культурного наследия.*

**Ключевые слова:** *исламский мир, культурное наследие, военные конфликты, международное право, государства-участники, международное сообщество, глобальные усилия, международные организации.*

**Redaksiyaya daxil olma tarixi: 25.07.2024**
**Çapa qəbul: 24.12.2024**